*Azərbaycan Respublikası*
*Maliyyə Nazirliyinin*
*Dövlət Sığorta Nəzarəti Xidmətinin*
*rəisi*

**______________ *N.C.Xəlilov***

**«___» ___________ *2011–ci il***

*"İPƏK YOLU SIĞORTA"*
*Açıq Səhmdar Cəmiyyətinin*
*İdarə Heyətinin Sədri*

**___________ *N.C.İmanov***

**«___» ___________ *2011–ci il***

# HAVA NƏQLİYYATI VASİTƏLƏRİNİN SIĞORTASININ ƏSAS QAYDALARI

**BAKI - 2011**

# HAVA NƏQLİYYATI VASİTƏLƏRİNİN SIĞORTASININ ƏSAS QAYDALARI

## 1. ƏSAS MÜDDƏALAR

1.1. Hazırki qaydalarla hava nəqliyyatı vasitələri kimi sərnişin və nəqliyyat təyyarələri və vertolyotları, xüsusi təyinatlı uçan aparatla və həmçinin, planerlər, deltaplanlar, dirijabllar və sairləri başa düşülür. Qaydaların mətnində hava nəqliyyat vasitələrinin bütün tipləri «hava gəmiləri» adlandırılırlar.

1.2. "İPƏK YOLU SIĞORTA" Açıq Səhmdar Cəmiyyəti (daha sonra Sığortaçı adlandırılacaq) hazırki Qaydaların şərtləri əsasında Azərbaycan hava gəmilərinin mülkiyyətçiləri və/və ya istismarçıları olan yerli və xarici hüquqi və fiziki şəxslərlə (daha sonra Sığortalı adlandırılacaq) müəyyən təsadüfi hadisələr - sığorta halları baş verərkən onların mülkiyyət maraqlarının müdafiə edilməsi barədə sığorta müqavilələri bağlayır.

1.3. Sığorta obyekti Sığortalının hava gəmisinin xüsusi mülkiyyətdə saxlanılması, istifadəsi, onun barəsində sərəncam verilməsi ilə əlaqədər olan, Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan əmlak mənafeyidir.

1.4. Sığortaçının hər hansı ödəniş edilməsi üzrə öhdəliklərinin yaranmasının əsas şərtləri uçuş – texniki və xidmət heyəti tərəfindən hava gəmisinin aeronaviqasiyası, texniki istismarı və ona xidmət göstərilməsinə olan tələblərin ğözlənilməsi, və həmçinin, səlahiyyətli təşkilatların istənilən vəzifəli şəxslərinin hava gəmisinin təhlükəsiz istismarı və havada hərəkətin icra edilməsinə aid olan göstərişlərinin yerinə yetirilməsidir.

1.5. Hazırkı Qaydalar üzrə sığorta növü sığorta obyektinə görə əmlak sığortasına aid olan hava nəqliyyatı vasitələrinin sığortası sinfinə daxildir.

1.6. Hazırki Qaydalara müvafiq olaraq sığorta predmeti sığorta müqaviləsi üzrə sığortalanan hava nəqliyyatı vasitələridir.

Sığortalı hər bir uçuşa istismar üçün yararlı olan saz hava gəmisinin buraxılmasını təmin etməli, və həmçinin, sistematik olaraq hava gəmisinə aid olan və qüvvədə olan qaydalara görə tələb edilən bütün zəruri sənədləri hazırlamalı və Sığortaçının tələbi ilə bu sənədləri Sığortaçıya (Sığortaçının nümayəndəsinə) təqdim etməlidir.

## 2. İZAHLAR

«Hava gəmisinin qəza təmiri» - istismarın normal şərtləri üçün normativ – texniki sənədlərdə nəzərdə tutulmamış xarici təsirlərin (qəfil hadisənin) nəticəsində zədələndikdən sonra hava gəmisinin aqreqat və ya tərkib hissələrinin sazlığının bərpa edilməsi üçün yerinə yetirilən plandan kənar təmir.

«Aqreqat» - hava gəmisinin tərkib hissəsidir, bilavasitə bu hissə üçün müəyyən edilmiş təmirlərarası resursa malikdir və bu hissə üçün ayrıca pasport və ya formulyar tərtib edilmişdir. Hava gəmisinin mühərriki bir aqreqat sayılır.

«Uçuş müddəti» - icra startı zamanı mühərrikin gücünün artırılmasının başlanmasından enmə zaman qaçışın dayanmasına qədər olan vaxt müddətidir.

«İnkar» - obyektin işlək vəziyyətinin pozulmasından ibarət olan hissədir.

«Qəfil hadisə» - hava gəmisinin istismarı zamanı baş verən hadisə və ya elə şərtlərin təkrar yaranmasıdır ki, bunlar ziyanın vurulmasına (hava gəmisinə, insana, hüquqi şəxsə) gətirib çıxarır və ya hava gəmisinin normal idarə edilməsini qeyri – mümkün edir.

«Yerdə sürmə» - hava gəmisinin uçuş sahəsi üzrə öz mühərrikinin dartı qüvvəsi hesabına dayanacaqdan icra startına və ya qaçış başa çatdıqdan sonra dayanacağa daxil olmaq üçün hərəkətdir.

«Sığorta riski» - nəzərdə tutulan elə hadisədir ki, bu hadisə baş verdiyi hal üçün hava gəmisi sığorta edilir.

## 3. SIĞORTA RİSKLƏRİ VƏ SIĞORTA TƏMİNATI NÖVLƏRİ

3.1. Sığortaçı, nəticəsi hava gəmisinin məhv olması, xəbərsiz itməsi, hava gəmisinin itməsi və ya zədələnməsi olan gözlənilməz (təsadüfi) hadisənin Sığortalıya ziyan vurması riskini sığortalanma üçün qəbul edir.

*Risklərin sığortalanması.* İstismarın ayrıca seçilmiş dövrləri üçün – uçuşda (A), yerdə sükanla idarə edərkən (V), və ya dayanacaqda olduqda, suda üzərkən (S), və həmçinin, bunların hər hansı kombinasiyası üçün icra edilir.

3.2. Sığortaçı, hazırkı Qaydalarda və qüvvədə olan qanunvericilikdə nəzərdə tutulmuş hadisələr istisna edilməklə, sığorta müqaviləsinin qüvvədə olma müddətində baş verən bütün sığorta halları üçün məsuliyyət daşıyır. Sığorta müqaviləsi iki və daha çox hava gəmisinin sığortalanmasını nəzərdə tuta bilər, bu halda hazırkı Qaydaların müddəaları hər bir hava gəmsinə ayrı – ayrılıqda tətbiq edilir.

3.3. Standart sığorta əhatəsi ilə aşağıdakı 3.4 və 3.5 bəndlərində göstərilən uçuşlar istisna edilməklə, hava gəmisinin təyinatına müvafiq olaraq sərnişinlərin, yükün, baqajın və poçtun daşınması üçün icazə verilmiş marşrutlarla hava gəmisinin uçuşu ilə əlaqədar olan hadisələr üzrə Sığortaçının məsuliyyəti müəyyən edilir. Bu sığorta əhatəsi, həmçinin, Sığortalı tərəfindən uçuş istismarı üzrə Rəhbərlik vəsaitinin (UİR) tələblərinin gözlənilməsi və Sığortaçının razılığının alınması şərti daxilində, hava gəmisinin zədələnməsindən sonra təmir müəssisəsinə aparılması və ya yerləşdiyi aerodroma sürülməsi hallarına da aid edilir.

3.4. Əlavə sığorta əhatəsi, hava gəmisinin xüsusi proqramlar üzrə, xüsusən: sınaq uçuşları, rekord əldə etmək üçün icra edilən uçuşlar, aviasiya texnikasının nümayişi, uçuş heyətinin öyrədilməsi, patrul vəzifələrinin yerinə yetirilməsi, yanğınlarla mübarizə, hava gəmisindən nəyinsə səpilməsi və digər yüksək riskə malik olan proqramların yerinə yetirilməsi ilə əlaqədar olan hadisələr üzrə Sığortaçının məsuliyyətini müəyyən edir.

Əlavə sığorta əhatəsi əlavə mükafat hesabına təmin edilir və Şəhadətnaməyə buna müvafiq yazı əlavə edilir.

3.5. Sığortanın xüsusi şərtləri (əsas şərtlərə əlavə olaraq) müharibə, qaçırma və digər aviasiya təhlükələri (müddəa – AVN 48 B) risklərinin, radiasiya və radioaktiv çirklənmənin təsiri risklərinin (müddəa AVN – 38A), küyün, çirklənmənin və digər təhlükələrin təsirinin xaric edilməsi risklərinin (müddəa AVN.46B) sığorta təminatını nəzərdə tuturlar ki, bunlar hazırki Qaydalara əsasən və əlavə şərtlər üzrə sığorta zamanı sığorta təminatına aid edilən risklərin siyahısından xaric edilmişdir.

Hava gəmisinin sığortasının xüsusi şərtləri Sığorta Müqaviləsinin xüsusi şərtlərinə daxil edilir və Sığortaçının informasiya təminatının xüsusi rejimi üzrə qüvvədə olur.

3.6. Konstruktiv və istehsal defektləri, heyətin səhvləri və digər səbəblər üzündən baş vermiş aviasiya mühərriklərinin və vertolyotlarının baş reduktorlarının, hava gəmilərinin digər aqreqatlarının daxili zədələnməsi halı üçün ziyanın sığortalanması sığortanın ayrı – ayrı şərtləri üzrə yerinə yetrilir və müstəqil müqavilə ilə rəsmiləşdirilir.

## 4. SIĞORTA MƏBLƏĞİ VƏ SIĞORTA ŞƏRTLƏRİ

4.1. Sığorta məbləğinin ölçüsü Sığortalı tərəfindən hava gəmisinin sığorta dəyəri – müqavilə bağlanan zaman onun həqiqi qiyməti əsasında muəyyən edilir. Nəzərdə tutulmuş resursun bir hissəsini işləmiş hava gəmisinin sığorta dəyəri yeni hava gəmisinin qiymətinin resursun işlənməmiş hissəsinə mütənasib olan hissəsi kimi hesablana bilər.

4.2. Sığorta müqaviləsində göstərilən sığorta məbləği sığorta müqaviləsinin qüvvədə olma müddəti ərzində baş vermiş bütün sığorta hadisələri üzrə əvəz kimi ödənilən məbləğin son həddini göstərir.

4.3. Hava gəmisinin məhvi, xəbərsiz itkin düşməsi, itməsi aşağıdakı vəziyyətlərdə sığorta halı kimi qəbul edilir:

a) baş vermiş hadisə nəticəsində hava gəmisi fiziki olaraq dağılmış və uçuş istismarı üçün tamamilə yararsız olmşdur (tam məhv olma) və ya bu gəminin qəza təmiri texniki cəhətdən məqsədəuyğun deyildir (konstruktiv məhv olma);

b) hava gəmisi plana uyğun olaraq sığorta müqaviləsinin qüvvədə olma müddətində havaya qalxdıqdan sonra təyinat məntəqəsinə gəlməmişdir və 60 gün ərzində onun axtarılması üzrə görülən tədbirlər nəticə verməmişdir və ya axtarışlar rəsmi olaraq bu müddətdən əvvəl kəsilmişdir;

c) hava gəmisinin itirilməsi bu gəminin çətin əldə edilə bilən və onun boşaldılması üçün yararsız olan yerə məcburi olaraq enməsi nəticisində baş vermişdir.

*Qeyd: hava gəmisinin xəbərsiz itkin düşməsi zamanı və onun itrilməsi zamanı dəyən ziyan hava gəmisinin məhv olmasından dəyən ziyana bərabər tutulur.*

4.4. Hava gəmisinin zədələnməsi – konstruksiyanın tamlığının pozulması və ya hava gəmisinin elementlərinin deformasiyası sığorta halı kimi o zaman qəbul edilir ki, zədələnmə nəyinsə birdəfəlik təsiri nəticəsində baş versin və zədələnmə nəticəsində hava gəmisinin iş qabiliyyəti (uçuş yararlılığı) itirilmiş olsun.

**İstisna: hazırkı qaydalar ilə aşağadakılar sığorta hadisəsinə aid edilmir və bu halda sığorta ödənişi verilmir:**

a) işçi proseslər və müşaiyətedici faktorlarla (vibrasiya, küy, elektromaqnit maneələrlə və s.) əlaqədar olan möhkəmliyin azalması səbəbindən hava gəmisinin ayrı - ayrı aqreqatlarının sıradan çıxması, əgər bu cür zədələnmələrin və sıradan çıxmaların səbəbləri aqreqatların daxilində lokallaşdırılmışdırsa;

b) normal istismar şərtlərinin və toplanan və ya inkişaf edən xarakterli yüklərin (korroziya, yorulma çatları və layların yaranması) təsiri ilə əlaqədar olaraq hava gəmisinin konstruksiyası elementlərinin zədələnməsi;

c) mühərrikin kompressorunun pərlərinin, xarici örtük elementlərinin və hava gəmisinin digər aqreqatlarının yerli zədələnmələri (əzilmələr və deşilmələr), bir şərtlə ki, bunlar hava gəmisi ilə baş verən qeydə alınmış konkret hadisə ilə əlaqədar deyildirlər və uçuşdan sonrakı baxış zamanı və ya hava gəmisində reqlament işlərinin aparılması zamanı aşkar edilmişdir.

<u>Baxılan maddəyə qeyd:</u>

a) mühərrikin qaz – hava traktına kənar cisimlərin düşməsi nəticəsində kompressorun pərlərinin zədələnməsi, bu cür zədələnmə mühərrikin uçuş zamanı qeydə alınmış dayanmasının səbəbi olmuşdursa, sığorta halı kimi nəzərdən keçirilir;

b) əgər yuxarıda göstərilən (a), (b) və (c) maddələrində göstərilən səbəblər nəticəsində hava gəmisi məhv olarsa, və ya bu səbəblər ekstremal vəziyyət doğurarsa və nəticədə hava gəmisinin hər hansı zədələnməsi baş verərsə bu cür hadisə sığorta halı kimi nəzərdən keçirilir.

4.5. Sığorta hadisəsi baş verdikdə, Sığortaçı öz seçimi əsasında Sığortalıya dəyən ziyanın konpensasiya edilməsi üsulunu müəyyən edir, yəni:

a) sığorta əvəzini pul formasında ödəyir;

b) Sığortalıya əvəzləmə üçün zədələnmiş hava gəmisinə və ya aqreqata analoji olan hava gəmisi və ya aqreqat verir;

c) hava gəmisinin qəza təmirinin xərclərini ödəyir.

4.6. Hava gəmisinin zədələnməsi və məcburən enməsi halında avadanlığın demontajı, nəql etmə və təmir üzrə heç bir iş Sığortaçının icazəsi olmadan başlanmamalıdır, burada heyətin və sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi, hava gəmisinin daha da zədələnməsinin qarşısının alınması üçün zəruri olan hallar, və ya müvafiq idarə orqanlarının qanuni əmr və göstərişlərinin yerinə yetirilməsi ilə əlaqədar olan hallar istisna təşkil edir.

4.7. Hava gəmisinin uçuşda zədələnməsi ilə əlaqədar olaraq məcburən yerə enməsi halında Sığortaçı, Sığortalının xilasetmə işlərinə, bu gəminin təhlükəsizliyinin və saxlanılmasının təmin edilməsinə, hər hansı nəqliyyat vasitəsilə ən yaxın aerodroma köçürülməsinə zəruri olaraq çəkdiyi xəcləri, sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta məbləğinin 10% - nə qədər olan həcmdə ödəyir.

4.8. Sığortaçı, hava gəmisinin sığorta hadisəsindən əvvəlki texniki vəziyyətinə və dəstləşdirmə səviyyəsinə qədər bərpa edilməsi üçün zəruri olan həcmdə, Sığortalının hava gəmisinin təmirinə çəkdiyi xərcləri ödəyəcəkdir.

Əgər sığorta hadisəsi üzrə qəza təmiri hər hansı planlı tədbirlə (əsaslı təmir və ya texniki xidmət) üst – üstə düşürsə və ya birləşdirilirsə, xərclərin bu təmirin aparılan plan tədbirləri çərçivəsindən xaricə çıxan hissəsi üçün əvəz ödənilir.

4.9. Sığortaçı Sığortalının faktiki xərclərini ödəyir və ya hava gəmisinin qəza təmiri üzrə müqaviləyə uyğun olaraq xəclərin bir hissəsinin ödənilməsi üzrə təmir müəssisəsinə təminat verir, bu zaman Sığortaçı ilə digər şərt razılaşdırılmışdırsa:

a) hava gəmisinin qəza təmirinə çəkilən xərclər, onun təmirlərarası resursunun bərpa edilməsi ilə əlaqədar olmayan hissədə, tam həcmdə əvəz kimi ödənilir;

b) texniki sənədlərə görə müəyyən təmirlərarası resursa malik olan aqreqatların əvəz edilməsi və ya təmirini çəkilən xərclər, bu aqreqatların təmirlərarası resurs həddi daxilində zədələnməsinə qədər işlənməmiş vaxta müvafiq olaraq əvəz kimi ödənilir;

c) nəqliyyat xərcləri – işçilərin, materialların və aqreqatların qəzaya uğramış hava gəmisinin yerləşdiyi yerə çatdırılmasının, hava gəmisinin hadisə yerindən baza aerodromuna uçmasının xərcləri o zaman ödənilir ki, onlar məqsədəuyğun olsunlar və ən qənaətcil yolla yerinə yetirilsinlər, və həmçinin 4.7 bəndində göstərilən xərc maddələri ilə birlikdə, sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta məbləğinin 10% hüdüdlarından kənara çıxmasınlar.

4.10. *<u>Sığorta ödənişinin ölçüsü.</u>* Əgər hava gəmisinin sığorta məbləği onun sığorta dəyərinə uyğundursa, resursun işlənməsi nəzərə alınmaqla, faktiki xərclər üzrə ödənilir.

4.11. Əgər sığorta məbləği hava gəmisinin sığorta dəyərindən azdırsa, Sığortalıya dəyən faktiki ziyan sığorta məbləğinin sığorta dəyərinə olan nisbətə mütənasib olan hissəsi kimi müəyyən edilir. Bu zaman sığorta ödənişi «Hava gəmisinin dəyərində aqreqatların dəyərinin xüsusi çəkilərinin cədvəlində» müəyyən edilmiş ölçüdən artıq ola bilməz (cədvəl əlavə edilir).

4.12. Azadolmanın (şərtsiz) ölçüsü hər bir hava gəmisi üçün sığorta müqaviləsi ilə təyin edilir və bu zaman:

a) azadolmanın ölçüsündən artıq olmayan ziyan üçün əvəz ödənilməməlidir;

b) əgər Sığortaçı bir neçə sığorta hadisəsi üzrə ödəniş edirsə, azadolma hər bir hal üzrə ziyanın məbləğindən çıxılır;

c) hava gəmisi məhv olduqda, xəbərsiz itkin düşdükdə, itdikdə azadolma çıxılmır.

4.13. Hava gəmisi məhv olduqda və xəbərsiz itkin düşdükdə, Sığortaçı sığorta məbləği ölçüsündə sığorta ödənişi ödəyir və ya Sığortalıya əvəz etmək üçün digər hava gəmisi verir. Bu halda:

a) Sığortaçı kompensasiya kimi hesabdan silinmiş hava gəmisinin və onun istənilən aqreqatlarının, bütün qeydiyyat sənədləri və mülkiyyət hüququ sənədləri ilə birlikdə mülkiyyətçisi olmaq hüququnu əldə edir;

b) Sığortaçı tərəfindən əvəz etmək üçün təqdim edilən hava gəmisi eyni tipdən (modeldən) və eyni istehsaldan olmalıdır, əvəz edilən hava gəmisinin vəziyyətinə (planer və mühərriklərin resursu, digər istismar – texniki xarakteristikaları) yaxın olan vəziyyətdə olmalıdır.

c) Əgər Sığortaçı siyahıdan silinmiş hava gəmisinin və ya onun aqreqatlarının mülkiyyətçisi olmaq barədə qərar qəbul etmirsə, Sığortalı birtərəfli qaydada, Sığortaçının xeyrinə, qəzaya uğramış hava gəmisindən imtina etmək hüququna malik deyildirsə, bu halda hava gəmisi Sığortalının mülkiyyətində qalır.

## 5. ÜMUMİ İSTİSNALAR

5.1. Hava gəmisinin aşağıda göstərilən hallarda olduğu dövrdə hadisə baş verdikdə sığorta müqaviləsi öz qüvvəsini itirir və sığorta ödənişi icra edilmir:

a) qanunvericiliklə qadağan edilmiş məqsədlər üçün və ya müqavilədə göstərilmiş məqsədlərdən fərqli olan məqsədlər üçün istifadə edilir;

b) müqavilədə göstərilən coğrafi hüdudlar xaricində yerləşir və bu cür kənarlaşma hava gəmisinin qəzası və fors - major hadisələri ilə əlaqədar deyildir;

c) səlahiyyəti olmayan və/və ya buna hüququ olmayan şəxslər tərəfindən uçuşda idarə edilir və ya yerdə idarə olunur;

ç) istənilən növ nəqliyyatla daşınır, burada sığorta hadisəsi nəticəsində zədələnmədən sonra daşınma istisna edilir;

d) həmin tipdən olan hava gəmisinin tələblərinə uyğun gəlməyən aerodroma (meydançaya) enir və ya oradan səmaya qalxır, bir şərtlə ki, bu hava gəmisinin qəzası və ya fors – major hadisəsi ilə əlaqədar deyildir;

e) həddən artıq yüklənmişdir – sərnişinlərin ümumi sayı baxılan gəmi üçün nəzərdə tutulmuş sərnişinlərin maksimal sayından çoxdur və/və ya yüklənmənin hədd normaları pozulmuşdur və ya hava gəmisinin mərkəzləşdirilməsi qaydası pozulmuşdur;

ə) bilərəkdən nasaz halda səmaya qalxır, burada Uçuş istismarı üzrə Rəhbərliyin buna icazə verdiyi və Sığortaçı ilə razılaşdırılmış hal istisna edilir.

5.2. Standart və əlavə sığorta əhatələri aşağadakılar əsasında istisna edilən risklərin sığorta əhatəsini nəzərdə tutmur:

a) radiasiyanın və radioaktiv çirklənmənin təsirindən yaranan risklərin xaric edilməsi haqqında müddəa – AVN. 38A (müddəa əlavə edilir);

b) müharibə, qaçırma və digər aviasiya təhlükələri halında risklərin xaric edilməsi haqqında müddəa – AVN. 48B (müddəa əlavə edilir);

c) küyün, çirklənmənin və digər təhlükələrin təsirinin xaric edilməsi barədə müddəa (AVN 46B).

*Qeyd: Bu bənddə göstərilən bəzi istisnalara, Sığortaçı və Sığortalı arasında əldə edilmiş xüsusi razılığa əsasən və Sığorta Şəhadətnaməsində göstərilməsi şərti ilə, tarif dərəcəsinə müvafiq əmsalların tətbiq olunması yolu ilə, müqavilənin şərtlərinə uyğun olaraq təminat verilə bilər.*

## 6. SIĞORTA HAQQI VƏ ONUN VERİLMƏSİ QAYDASI

6.1. Sığorta haqları Sığortalı tərfindən Sığortaçıya sığorta müqaviləsi üzrə sonuncunun qəbul etdiyi öhdəliklər üçün ödədiyi pul məbləği deməkdir.

6.2. Sığorta haqqının ölçüsü Sığortalı tərəfindən qüvvədə olan tarif dərəcələri, müqavilənin qüvvədə olma müddəti və digər faktorlarla müvafiq olaraq seçdiyi sığorta şərtləri əsasında müəyyən edilir. Sığortaçı sığorta haqqının ölçüsünü müəyyən edir və Sığortalıya müvafiq məbləğdə hesab təqdim edir və ödəniş müddətini göstərir.

6.3. Müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra qüvvəyə minir. Sığorta haqqının ikinci və sonrakı hissələri vaxtında ödənilmədikdə Sığortaçı onun ödənilməsi üçün yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.

6.4. Sığortalı öz tərəfindən sığorta haqlarının ödənildiyini sübut edən sənədləri saxlamalı və onları Sığortaçının tələbi ilə təqdim etməlidir.

Əgər sığorta haqlarını Sığortalının tapşırıgı ilə başqa bir şəxs ödəyirsə, həmin şəxs bununla əlaqədar olaraq Sığorta müqaviləsi üzrə heç bir hüquq əldə etmir.

## 7. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI QAYDASI, QÜVVƏDƏOLMA MÜDDƏTİ VƏ ONA XİTAM VERİLMƏSİ

7.1. Sığorta müqaviləsi Sığortalı və Sığortaçı arasındakı razılaşmadır və bu müqaviləyə görə Sığortaçı öhdəlik götürür ki, sığorta hadisəsi baş verdikdə sığorta ödənişi etsin, Sığortalı isə öhdəlik götürür ki, müəyyən edilmiş müddətlərdə sığorta haqlarını (mükafatı) ödəsin.

7.2. Müqavilə Sığortalının yazılı ərizəsi əsasında bağlanır. Bu ərizə Sığortaçının müəyyən etdiyi formada tərtib edilir və burada əsas məlumat kimi aşağıdakılar göstərilməlidir:

- Sığortalının adı və hüquqi unvanı;

- Sığorta edilən hava gəmisinin siyahısı, onların bort (qeydiyyat və zavod) nömrələri, buraxılış ili, və təyin edilmiş resursların işlənməsi;

- muhərrikin nömrələri və onlardan hər birinin işlənməmiş resursu;

- sığorta şərtləri (risklər, hər bir hava gəmisi üzrə sığorta məbləği və sığorta müddəti);

- uçuşların xarakteri və hava gəmisinin istismarının coğrafi rayonları;

- riskin dərəcəsini müəyyən etmək üçün vacib əhəmiyyət kəsb edən digər məlumatlar.

Sığorta üçün ərizə hava gəmisinin mülkiyyətçisi olan müəssisənin rəhbərləri və ya onun müvafiq səlahiyyətlərə malik olan nümayəndəsi tərəfindən imzalanmalıdır.

7.3. Sığorta müqaviləsi tərəflər arasında razılaşdırılmış istənilən müddətə bağlanır və sığorta Şəhadətnaməsinin verilməsi ilə təsdiq edilir. Bu Şəhadətnamə Sığortaçı tərəfindən imzalanır, möhürlənir və Sığortalıya göndərilir. Sığorta üçün ərizə və sığorta haqqının (mükafatın) ödənilməsi üçün ödəniş tapşırığı, sığorta Şəhadətnaməsi və Sığortaçının hesabı hazırki qaydalarla birlikdə Sığorta Müqaviləsi sənədlərinin komplektini təşkil edir.

7.4. Sığorta muqaviləsi (sığorta təminatı) Sığorta Şəhadətnaməsində göstərilmiş sığortanın qüvvəyə minmə tarixində saat 24:00-da qüvvəyə minir və göstərilmiş sığorta təminatının qüvvədən düşmə tarixində saat 24:00-da qüvvədən düşmüş hesab edilir.

7.5. Sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə və sığorta hadisəsi baş verənə qədər Sığortalının hüququ vardır ki, öz qənaətinə görə Faydalanan şəxsi təyin etsin, Faydalanan şəxsi əvəz etsin və ya Faydalanan şəxs haqqında şərti ləğv etsin.

Əgər hava gəmisi bir neçə şəxsin ümumi mülkiyyətinin predmetidirsə, bu halda bu cür şəxslər Faydalanan şəxs təyin edilə bilərlər, bu zaman Faydalanan şəxslər hava gəmisinə olan mülkiyyət hüququndakı öz paylarına müvafiq olaraq sığorta ödənişinin bir hissəsini (payı) əldə edirlər.

7.6. Müqaviləyə dəyişiklər və əlavələr onun qüvvədə olma müddəti ərzində yalnız tərəflərin razılığı ilə daxil edilə bilər və bunlar ikitərəfli sənədlərlə rəsmiləşdirilirlər.

Vəziyyətdə və ya risklərin təbiətində əhəmiyyətli dəyişiklik baş verdikdə, ödənişin möhlət müddəti uzadıldıqda, Sığortalı bu barədə Sığortaçıya dərhal məlumat verməlidir, və bu zaman Sığortaçı, birtərəfli qaydada, sığorta haqqının miqdarını artırmaq hüququna malikdir.

7.7. Sığorta müqaviləsinin təsiri hava gəmisinin zədələnməsi halı üçün sığorta əvəzi ödənildikdən sonra həmin hava gəmisinin uçuşa yararlı olmasının müəyyən edildiyi tarixdən başlayaraq davam edir, lakin bu hava gəmisinə münasibətdə sığorta məbləği ödənişlərin məbləği qədər azalır.

7.8. Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

7.8.1. müqavilənin qüvvədə olma müddətinin başa çatması və ya Sığortaçı tərəfindən müqavilə üzrə Sığortalı qarşısında olan bütün öhdəliklərin tam həcmdə yerinə yetirilməsi;

7.8.2. Sığortalı tərəfindən sığorta haqlarının müqavilədə müəyyən edilmiş müddətdə ödənilməməsi;

7.8.3. hüquqi şəxs olan Sığortalının ləğv edilməsi,və ya fiziki şəxs olan Sığortalının ölümü, sığorta haqqında Qanunda və hazırki qaydalarda nəzərdə tutulmuş hallar istisna edilməklə;

7.8.4. Sığortaçının, Azərbaycan Respublikasının qanunvericilik aktlarında müəyyən edilmiş qaydada ləğv edildiyi halda, əgər sığorta portfeli onun tərəfindən başqa bir Sığortaçıya verilməmişdirsə;

7.8.5. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda, məhkəmə sığorta müqaviləsinin qeyri – həqiqi olması barədə qərar çıxardıqda;

7.8.6. Həm Sığortaçının, həm də Sığortalının 30 gün qabaqcadan yazılı xəbərdarlıq verməsi yolu ilə:

7.8.6.1. Müqavilənin Sığortalının tələbi ilə vaxtından əvvəl xitam olunması halında, Sığortaçı çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış hissəsi üçün sığorta haqqını ona qaytarır; əgər bu tələb Sığortaçının sığorta qaydalarını pozması ilə bağlıdırsa o, sığorta haqlarını Sığortalıya bütünlüklə qaytarır.

7.8.6.2. Müqavilənin Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam olunması halında, Sığortaçı Sığortalının sığorta haqqlarını bütünlükdə qaytarır; əgər bu tələb Sığortalının sığorta qaydalarını yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış hissəsi üçün sığorta haqqını qaytarır.

7.8.6.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı sığortalıya qaytarılmır.

7.8.6.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 7.8.6.1-ci və 7.8.6.2-ci maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

7.8.7. qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda.

## 8. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

8.1. Sığorta müqaviləsi üzrə tərəflərin hüquq və vəzifələri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə, hazırkı qaydalar və sığorta müqaviləsinin şərtləri ilə tənzim edilir.

8.2. Sığortalının vəzifələri:

a) Sığorta müqaviləsinin bütün şərtlərinin gözlənilməsi;

b) Sığorta müqaviləsi bağlanarkən, sığorta riskini qiymətləndirmək üçün əhəmiyyət kəsb edən və ona məlum olan təfərrüat barədə, və həmçinin, hər bir hava gəmisinə münasibətdə bağlanmış və ya bağlanan bütün sığorta müqavilələri barədə Sığortaçıya məlumat vermək;

c) müqavilənin quvvədə olduğu müddətdə sığortalanmış əmlaka dəyən ziyanın qarşısını almaq və ya azaltmaq üçün bütun tədbirləri görmək;

ç) sığorta haqqını vaxtında ödəmək.

d) Sığorta müqaviləsi üzrə hüquq və vəzifələr Sığortalı tərfindən tam və ya qismən üçüncü tərəfə verilə bilməz, burada Sığortalının yazılı formada təsdiq edilmiş razılığı olduğu hal istisna təşkil edir.

8.3. Sığortalının hüquqları:

a) Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan qaydada sığorta müqaviləsinə xitam vermək;

b) Sığorta müqaviləsini (Sığorta Səhadətnaməsini) itirdiyi halda onun yeni nüsxəsini (dublikatını) almaq;

c). Sığorta hadisəsinin qarşısı alınması və dəyə biləcək zərərin azalması üçün zəruri olan məlumat və məsləhətləri Sığortaçıdan almaq;

8.4. Sığortaçının vəzifələri:

a) Sığortaçı, Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, Sığortalı haqqında və onun əmlak vəziyyəti haqqında məlumatı yaymamağa borcludur.

b) Sığortalıya Sığortaçı tərəfindən müəyyən edilmiş qaydada tərtib olunmuş sığorta müqaviləsinin nüsxəsini vermək və Sığortalını sığorta müqaviləsinin şərtləri ilə tanış etmək;

c) Sığortalıdan hadisə haqqında məlumat daxil olduqda baş vermiş hadisənin səbəblərini, xarakterini araşdırmaq, dəymiş zərərin miqdarını və ya ödəniləcək məbləği müəyyən etmək, və nəticədə hadisəni sığorta hadisəsi kimi tanıdıqda və ödənişin verilməsindən imtina üçün əsaslar olmadıqda müqavilə ilə müəyyən edilmiş müddət ərzində və qaydada sığorta məbləği(ləri) çərçivəsində sığorta ödənişini vermək;

ç) Sığorta ödənişinin verilməsindən imtina üçün əsaslar olduqda bu barədə Sığortalıya, səbəbləri göstərilməklə, yazılı şəkildə məlumat vermək;

d) Sığortalı tələb etdikdə, sığorta müqaviləsinin (Sığorta Şəhadətnaməsinin) və sığortanı təsdiqləyən digər sənədlərin yeni nüsxəsini (dublikatını) təqdim etmək;

e) Sığorta müqaviləsi ilə nəzərdə tutulan digər öhdəliklərini yerinə yetirmək.

8.5. Sığortaçının hüquqları:

a) Sığortalının verdiyi informasiyanın, və həmçinin, Sığortalı tərəfindən sığorta müqaviləsinin tələblərinin yerinə yetirilməsinin yoxlanması, səlahiyyətli orqanlara sorğu göndərilməsi;

b) Sığorta müqaviləsi qüvvəyə mindikdən sonra sığorta edilmiş hava gəmiləri ilə baş verən aviasiya hadisələri və qəfil halların tədqiqatında iştirak etmək, Sığortalı tərəfindən onların istismarı üzrə normativ – texniki sənədlərin tələblərinin gözlənilməsini yoxlamaq.

*Sığorta hadisəsi baş verdikdə Tərəflərin qarşılıqlı fəaliyyəti*

8.6. Hava gəmisi ilə sığorta hadisəsi kimi qiymətləndirilə bilən hər hansı hadisə baş verdikdə, Sığortalı aşağıdakıları etməyə borcludur:

a) baş verən hadisə haqqında Sığortaçıya dərhal məlumat vermək və növbəti üç gün müddətində yazılı məlumat göndərmək və burada hadisənin bütün məlum tərəflərini əks etdirmək;

b) zədələnmiş hava gəmisinə əlavə ziyan dəyməsinin qarşısını almaq, onun və uçuş informasiyasını qeydə alan cihazların qorunub saxlanması üçün tədbirlər görmək;

c) Sığortaçının, qanunvericiliyə müvafiq olaraq, ziyan üçün məsuliyyət daşıyan şəxslərə reqres tələb hüquqlarının təmin edilməsi üçün tədbirlər görmək;

ç) xilasetmə işlərinin təşkili üzrə və bu bəndin (b) və (c) paraqraflarında göstərilmiş tədbirlərin təmin edilməsi məqsədilə hərəkətlər istisna edilməklə, Sığortaçının yazılı razılığı olmadan, baxılan sığorta hadisəsinə aid olan heç bir öhdəlik qəbul etməmək, öz məsuliyyətini boynuna almamaq, heç bir təklifi qəbul etməmək, heç bir ödəniş icra etməmək və ödənişə aid vədlər verməmək.

d) Sığortaçının nümayəndələrinin hadisənin təfərrüatının tədqiq edilməsində iştirakını təmin etmək və Sığortaçıya sığorta hadisəsinə aid olan bütün informasiyanı təqdim etmək.

8.7. Sığortalı istənilən halda, sığorta ödənişi üzrə qərardan asılı olmayaraq, Sığortaçını sistematik olaraq sığorta edilmiş hava gəmisi ilə əlaqədar olan istənilən aviasiya hadisəsinin və ya ciddi qəfil hadisənin tədqiqatının gedişi barədə məlumatlandırmalı və tədqiqat başa çatdıqdan sonra, təsdiq edilmiş rəyin (aktın) surətini Sığortaçıya təqdim etməlidir.

## 9. SIĞORTA ÖDƏNİŞİ VERİLMƏSİNİN QAYDA VƏ ŞƏRTLƏRİ

9.1. Sığortaçı sığorta müqaviləsi üzrə bu qaydaların Sığortalı tərəfindən yerinə yetirildiyi halda məsuliyyət daşıyır, lakin Sığortalı tərəfindən ayrı – ayrı maddələrin qeyri – iradi pozulmaları və bunların aşkar edildikdən sonra dərhal onun tərəfindən aradan qaldırılması Sığortaçını sığorta əvəzinin ödənilməsi üzrə öhdəliklərdən azad etmir.

9.2. Sığorta ödənişi Sığortaçı tərəfindən, Sığortalının sığorta ödənişinin verilməsi barədə ərizəsi və Sığortaçının tərtib etdiyi sığorta aktı (rəyi) əsasında icra edilir.

9.3. Sığortalı sığorta ödənişinin verilməsi üçün ərizə ilə birlikdə Sığortaçıya aşağıdakı sənədləri (əslini və ya təsdiq edilmiş surətlərini) təqdim etməlidir:

a) sığorta halının təfərruatına, onun səbəblərinə, ziyanın ölçülərinə aid olan sənədlər (bu cür sənədlərə texniki baxış aktı, komissiyanın rəyi və s. aid edilə bilər);

b) Sığortalının (Faydalanan şəxsin) sığorta marağının olmasını təsdiq edən sənədlər – məhz, onun hava gəmisində olan mülkiyyət hüququnu təsdiq edən və ya bu gəminin məhv olması və ya zədələnməsi halında olan mülkiyyətçi qarşısında məsuliyyətin ölçüsünü müəyyən edən sənədlər;

c) hava gəmisinin zədələnməsi halında – təmir planı və qəza təmiri üçün xərclər smetası;

ç) hava gəmisinin sığorta dəyəri üzrə rəy və Sığortaçının sorğusu ilə digər sənədlər.

9.4. Sığorta aktı sığorta ödənişinin miqdarını əsaslandırmaq və hesablamaq üçün zəruri olan tam sənədlər toplusu Sığortaçıya verildikdən sonra bir ay müddətində tərtib edilir və təsdiq edilir. Əgər Sığortaçı Sığortalının verdiyi məlumatın məxsusi tədqiqatını aparırsa, bu halda sığorta aktı bu tədqiqat başa çatdıqdan sonra, lakin sığorta halı üzrə sənədlər dəsti Sığortalıdan alındıqdan sonra 3 aydan gec olmayaraq təsdiq edilir.

9.5. Sığortaçı, əgər ödəniş hava gəmisinin məhvi üzrə icra edilirsə, sığorta aktı təsdiq edildikdən sonra 30 gün müddətində sığorta ödənişini həyata keçirir;

Ödəniş hava gəmisinin zədələnməsi üzrə icra edildikdə isə, tərəflər arasında başqa bir razılıq əldə edilməmişdirsə, 15 təqvim günü ərzində həyata keçirilir.

9.6. Əgər Sığortalı bir neçə Sığortaçı ilə hava gəmisinin sığortası üzrə müqavilələr bağlamışdırsa (ikiqat sığorta), bu halda Sığortaçı sığorta ödənişini elə bir ölçüdə verəcəkdir ki, bu məbləğ ödənilməli olan ziyanın bu Sığortalı tərəfindən göstərilən hava gəmisinin sığortası üzrə bağlanmış bütün müqavilələrin ümumi məbləğində onunla bağlanmış müqavilənin sığorta məbləğinin təşkil etdiyi paya müvafiq olan hissəsini aşmayacaqdır.

## 10. SIĞORTA ÖDƏNİŞİ VERMƏKDƏN İMTİNA HALLARI VƏ YA ONUN AZALDILMASI

10.1. Sığortaçının hüququ vardır ki, hazırkı Qaydaların «İstisnalar» bölməsində göstərilmiş hallarda və həmçinin, aşağıdakı hallarda sığorta ödənişindən imtina etsin:

a) Sığortalının (Faydalanan şəxsin) sığorta hadisəsinin yaranmasına yönəldilmiş niyyətli hərəkətləri;

b) Sığortalı (Faydalanan şəxs) tərəfindən sığorta hadisəsi ilə birbaşa səbəbiyyət əlaqəsində olan cinayətin törədilməsi;

c) uçuş və ya texniki heyət tərfindən Uçuş istismarı üzrə Rəhbərliyin və ya digər rəhbər sənədlərinin tələblərinin pozulması, əgər bu pozulma sığorta hadisəsinin səbəbi olmuşsa;

d) Sığortalı tərəfindən Sığortaçıya sığorta obyekti və ziyanın ölçüləri barədə bilərəkdən yalan məlumatların verilməsi.

10.2. Əgər Sığortalı, Sığortaçı tərəfindən əvəzi ödənilən ziyan üçün qanunvericiliyə müvafiq olaraq məsuliyyət daşıyan şəxslərə qarşı Sığortaçının tələblərinə aid olan reqres tələb hüquqlarının təmin edilməsi üçün tədbirlər görmürsə, Sığortalı bu cür tələb hüququnun ölçüsünə bərabər olan hissə üzrə sığorta ödənişin alınması hüququnu itirir.

10.3. Əgər Sığortalı zədələnmiş hava gəmisinin (onun zədələnməmiş aqreqatlarının) saxlanmasını təmin etmək üçün tədbirlər görmürsə, və bu ziyanın artmasına gətirib çıxarmışdırsa, bu halda Sığortaçının hüququ vardır ki, sığorta ödənişinin məbləğini bu əlavə ziyanın məbləği qədər azaltsın.

10.4. Əgər qanuna görə və ya hazırki Qaydalara görə Sığortalını sığorta ödənişi almaq hüququndan məhrum edən təfərruat aşkar edilərsə, Sığortalı aldığı sığorta ödənişi məbləğini Sığortaçıya qaytarmalıdır.

10.5. Sığorta müqaviləsindən irəli gələn mübahisələrə, tərəflər arasında razılaşmanın əldə edilmədiyi halda, mövcud qanunvericiliyə uyğun olaraq məhkəmə qaydasında baxılır.

## 11. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

11.1. Sığorta müqaviləsi Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tərtib edilib və tərəflərlə lazımi qaydada yerinə yetirilməlidir.

11.2. Sığorta müqaviləsi üzrə tərəflərdən biri müqavilədən irəli gələn öhdəliklərini yerinə yetirmədikdə və yaxud lazımınca yerinə yetirmədikdə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq digər tərəfə vurduğu ziyanın əvəzini ödəməlidir.

11.3. Sığorta müqaviləsinə əsasən tərəflərdən heç biri o biri tərəfin yazılı razılığı olmadığı halda öhdəliklərini üçüncü tərəfə vermək hüququna malik deyil.

## 12. ƏRİZƏ FORMASI

12.1. Sığorta müqaviləsi Sığortalı (Sığorta olunan) tərəfindən doldurulmuş Ərizə Forması əsasında bağlanılır və sığorta müqaviləsinin ayrılmaz hissəsi sayılır.

12.2. Sığorta müqaviləsinin bağlanmasından sonra Sığortalı (Sığorta olunan) tərəfindən sığorta hadisəsinin baş verməsi ehtimalının qiymətləndirilməsi üzrə vacib məlumatı Sığortaçıya yanlış və ya təhrif olunmuş şəkildə təqdim olunması aşkarlanarsa, və sığorta müddəti ərzində barəsində yanlış və ya təhrif olunmuş məlumatlar verilən hallar ilə əlaqədar olan sığorta hadisəsi baş verərsə, belə faktlar sığorta ödənişinin verilməsindən imtina edilməsinə və müqavilənin etibarsız hesab edilməsinə gətirə bilər.

## 13. MƏLUMAT VƏ XƏBƏRDARLIQLARIN ÇATDIRILMASI

Müqavilə tərəfləri bir birinə yolladığı bildiriş və xəbərdarlıqlara dair aşağıdakı tələblərə riayət etməlidir:

a) müqaviləyə müvafiq olaraq göndərilən hər hansı məlumat, bildiriş, xəbərdarlıq və ya razılıq yazılı şəkildə tərtib olunmalı və şəxsən, qabaqcadan ödənilmiş poçt və ya kuryer (çatdırma barədə bildiriş ilə), faks və ya teleks vasitəsi ilə müqavilədə göstərilmiş ünvanlara göndərilməlidir.

b) Tərəflərin ünvanları və/və ya rekvizitləri dəyişdiyi halda onlar bir birinə bu barədə əvvəlcədən məlumat göndərməlidirlər. Əgər sığorta müqaviləsi üzrə tərəf digər tərəfin ünvan və ya rekvizitlərinin dəyişməsi barədə məlumatlandırılmayıbsa, keçmiş ünvana göndərilən bütün bildiriş və xəbərdarlıqlar keçmiş ünvana çatdırıldığı andan qəbul olunmuş hesab olunurlar.

## 14. MÜBAHİSƏLƏRİN HƏLL EDİLMƏSİ

Sığorta müqaviləsi ilə bağlı bütün məsələlər, o cümlədən tərəflər arasında yaranan fikir ayrılığı və mübahisələr bir qayda olaraq danışıqlar yolu ilə həll edilir. Əgər danışıqlar yolu ilə nəticə əldə edilməzsə, mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada, o cümlədən məhkəmə qaydasında həll olunmalıdır.

# ƏLAVƏLƏR

Əlavə 1. Küyün, çirklənmənin və digər təhlükələrin təsirinin xaric edilməsi barədə müddəa (AVN.46B).

Əlavə 2. Radiyasiya və radioaktiv çırılənmənin təsirindən yaranan risklərin xaric edilməsi barədə müddəa (AVN 38A).

Əlavə 3. Müharibə, qaçırma və digər aviasiya təhlükələri risklərinin xaric edilməsi barədə müddəa (AVN 48B).

ƏLAVƏ 1.

Küyün, çirklənmənin və digər təhlükələrin təsirinin xaric edilməsi barədə müddəa (AVN 46B).

Aşağıdaki təsirlər nəticəsində birbaşa və ya dolayı yolla törənmiş və ya yaranmış ziyanlar üzrə sığorta ödənişləri icra edilmirlər:

a) küyün (insan qulağının eşitdiyi və ya eşitmədiyi), vibrasiyanın, akustik uğultunun və/və ya buna bənzər digər təzahürlərin təsiri;

b) istənilən çirklənmələrin və zəhərlənmələrin;

c) elektrik və ya elektromaqnit maneələrin təsiri;

ç) mülkiyyətə dəyən ziyan (təyyarənin idarəsindəki nasazlıqlardan yaranmış olan partlayış, toqquşma və ya uçuşda qəza vəziyyəti nəticəsində yaranmış olan və ya baş vermiş ziyan istisna edilməklə).

Sığortaçı tərəfindən aşağıdakilar üzrə tədqiqat aparılmasına və onlardan müdafiə olunmağa ehtiyac yoxdur:

a) 1-ci bənd üzrə itkilərlə əlaqədar olan iddialar, və ya

b) 1-ci bənd üzrə itkilər üzrə iddialarla birlikdə cəm halda baxılan iddia və ya iddialar (bax aşağıda «Qarışıq risklər»).

Sığortaçı Qarışıq risklərə münasibətdə (sübut edilmiş itki və məsuliyyət limitinə müvafiq olaraq) qismən aşağıdakı bəndlər üzrə Sığortalıya ödənişlər edir;

a) Sığortalıya əvəz ödəmək üçün müəyyən edilmiş ziyanlar;

b) Sığortalıya çatmalı olan qonorarlar və müdafiə üzrə xərclər.

Burada göstərilən heç bir şey «Radiasiya və radioktiv çirklənnmənin təsirinin xaric edilməsi haqqında müddəaya» və qaydalara olan digər əlavələrə aid edilmir.

ƏLAVƏ 2.

Radiasiya və radioaktiv çirklənmənin təsirindən yaranan risklərin xaric edilməsi barədə müddəa (AVN 38A).

Aşağıdakı hallar sığorta hadisələrinə aid edilmir və onlar üzrə sığorta ödənişi verilmir:

a) ionlaşdırıcı radiasiyanın və ya radioaktiv çirlənmənin birbaşa və ya dolayı yolla təsiri nəticəsində sağlamlığa (bədən xəsarəti, ölümcül və ya digər yaralanma) və ya əmlaka dəyən hər hansı ziyan;

b) əgər hər hansı məsuliyyət birbaşa və ya dolayı yolla ionlaşdırıcı radiasiyanının və radioaktiv çirklənmənin təsirindən yaranmışdırsa.

Yalnız aşağıdakı şərtlər daxilində hər hansı radioaktiv materialın İATA qaydalarına muvafiq olaraq daşınması zamanı ionlaşdırıcı radiasiya və ya radioaktiv çirklənmə nəticəsində birbaşa və ya dolayı

yolla yaranan və ya bunun nəticəsi olan ziyan, dağılma, xərclər və ya hüquqi məsuliyyət üçün sığorta ödənişi verilir (bu müddəanın 1-ci bəndinin təsir dairəsi məhdudlaşdırılır):

a) Sığortaçının məsuliyyətinin qabaqcadan müəyyən edilmiş şərti vardır, və hər hansı radioaktiv materialın daşınması İATA-nın onların hava yolu ilə daşınmasına aid olan mövcud qaydalarına tam müvafiq olacaqdır;

b) Sığortalıya hər hansı iddia (ziyan üzrə) təqdim edilmişdir və bu iddia müqavilənin qüvvədə olduğu müddətdə baş verən hər hansı qəza və ya bədbəxt hadisənin nəticəsidir və Sığortalının hər hansı bu cür iddiası, Sığortaçıya qarşı və ya Sığortalıya qarşı iddia irəli sürən şəxsə qarşı, iddiaya səbəb olan qəfil hadisədən sonrakı üç il ərzində qaldırılmışdır;

c) radioaktiv çirklənmənin hava ilə təhlükəli yüklərin təhlükəsiz daşınması üzrə İKAO-nun texniki təlimatlarında müəyyən edilmiş maksimal buraxıla bilən səviyyədən çoxdur;

ç) bu bənd üzrə sığorta müdafiəsi 7 gün əvvəl bildiriş vermiş olan Sığortaçı tərəfindən istənilən zaman kəsilə bilər.

ƏLAVƏ 3.

Müharibə, qaçırma və digər aviasiya təhlükələri risklərinin xaric edilməsi barədə müddəa (AVN. 48B).

Aşağıdakı səbəblərdən yaranmış itkilər üzrə sığorta ödənişi verilmir:

a) müharibə, müdaxilə, xarici düşmənlərin hərəkətləri, döyüş əməliyyatları (müharibənin elan edilib-edilməməsindən asılı olmayaraq), vətəndaş müharibələri, qiyamlar, inqilablar, üsyanlar, hərbi vəziyyət və ya qanunsuz yolla ələ keçirmək cəhdləri;

b) atom və ya nüvə və/və ya termonüvə və ya digər bənzər reaksiyalar və ya radioaktiv qüvvələr və ya materiallar istifadə edilməklə istənilən döyüş silahının istənilən partlayışı;

c) tətillər, hərc-mərclik, vətəndaş itaətsizliyi və ya istehsal qayda – qanunlarının pozulması;

ç) bir və ya bir neçə nəfərin hər hansı hərəkətləri (onların öz adlarından çıxış etməsi və ya hər hansı dövləti təmsil etməsindən, siyasi və ya terrorçu motivlərlə törədilən hadisə olmasından, bu əməllərdən törənən itki və ziyanların təsadüfi və ya qərəzli olmasından asılı olmayaraq);

d) istənilən hədə-qorxu, sabotaj və ya diversiya aktları;

e) konfiskasiya, milliləşdirmə, həbs qoyulması, azadlıqdan məhrum etmə, mənimsəmə, mülkiyyət hüququ ilə və ya istifadə üçün və ya hər hansı mülki, hərbi və ya faktiki idarə edən hökümətin, və ya ictimai və ya yerli hakimiyyətin sərəncamı üzrə rekvizisiya;

ə) gəminin bortunda, Sığortalı tərəfindən dəstəklənməyən bir şəxsin və ya bir qrup şəxsin törətdiyi qaçırma və ya hər hansı qeyri – qanuni ələ keçirmə və ya uçuş zamanı hava gəmisi və ya ekipaj üzərində zorakı nəzarət (o cümlədən, bu cür ələ keçirmə və ya nəzarətin istənilən cəhdi).

Bundan əlavə, yuxarıda göstərilən təhlükələrdən birinin nəticəsində hava gəmisi Sığortalının nəzarətindən xaricdə yerləşdiyi zaman yaranan ziyanlar üçün ödəniş verilmir. Hava gəmisi Sığortalının sığorta müqaviləsinin coğrafi hüdudlarının xaricində olmayan aerodromuna müvəffəqiyyətlə və uçuşlar üçün tam yararlı qayıtdıqda hava gəmisi Sığortalının nəzarəti altına qayıtmış hesab ediləcəkdir (müvəffəqiyyətli qayıdış kimi belə bir hal başa düşülür ki, hava gəmisi söndürülmüş mühərriklərlə dayanacaqda dayanmışdır və üçüncü şəxslər tərəfindən bunu etmək üçün heç bir zorakı məcbur etmə hərəkəti edilmir).